# BLACKBERRY İNTERNET CƏMİYYƏTİNDƏ ÜNSİYYƏT STANDARTLARI

BBM daxilində BlackBerry ortaq maraqlara malik insanların fikir və informasiya mübadiləsi üçün əyləncəli və maraqlı məkan olacaq BBM Channels kimi İnternet cəmiyyət və xidmətləri təklif edir. İstifadəçilərimizə qonaqpərvər mühitin təmin edilməsi üçün istifadəçilərin qarşılıqlı əlaqələrinin aşağıdakı standartlara cavab verməsi vacibdir:

1. **Hörmətcil olun.** Digərlərini rüsvay, təhqir, rahatsız və təhdid etmək, izləmək, qorxutmaq, zədələmək və ya qanuni hüquqlarını (məsələn, məxfilik və yayınlama, müqavilə və intelektual mülkiyyət hüquqları) pozmaq olmaz;

2. **Nəzakətli olun.** Münasib olmayan, küfredici, təcavüz xarakterli, əxlaqsız, nalayiq və ya qanunsuz mətn, ad, material və ya informasiya paylaşmamalı, ünvanlanmamalı, yükləməməli və ya yaymamalısınız;

3. **Qanunlara riayət edin.** Tətbiq olunan qanun və qaydaları pozmayın, eləcə də casus proqramları, zərərli proqramlar, virus və ya digər xidmətə xələl gətirəcək və ya başqalarına ziyan vuracaq şeyləri paylaşmaq və ya göndərmək olmaz;

4. **Doğruçu olun.**. Heç kəsi və heç bir qurumu təqlid etməyin, kimləsə və ya hansısa qurumla əlaqənizi yalnız və ya düzgün olmayan şəkildə təqdim etməyin, eləcə də, digərlərinin gözlənilməz, saxta və ya ədalətsiz təcrübə yaşaması üçün saxta kimlik yaratmayın; və

5. **Məqsədəyönlü olun**. Divarda ikiqat göndərişlər, çoxsaylı ismarıclar və ya mövzuya aidiyyatı olmayan göndərişlər daxil olmaqla başqalarını “spam”-a atmayın və onların icazəsi olmadan nəyəsə təkid etməyin.

Standartlarımız istifadəçilərimiz üçün maraqlı, dəyərli, yaradıcı və ən əsası zövqverici təcrübə yaratmaqla gələcək hədəflərimiz üzərində qurulmuşdur.